**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**Ə M R İ**

---

**№ 65** **05 iyul 2013-cü il**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında məsləhət-məşvərət qrupunun yaradılması barədə**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" nin tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədi ilə gündəlik və cari işlərin görülməsi, qarşıda duran vəzifələrin icrasının təşkil edilməsi, planlaşdırılmasının keçirilməsi zərurəti ilə əlaqədar olaraq "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" nin 6.8-ci bəndini rəhbər tutaraq

**ə m r e d i r ə m :**

1. Binəqədi Rayon İcra Hakimiyyəti Aparatının məsləhət-məşvərət qrupu yaradılsın.

2. Məsləhət-məşvərət qrupu aşağıdakı tərkibdə təsdiq edilsin:

Qrupun rəhbəri:

| | |
|---|---|
| Elnur İmanov | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |

Qrupun üzvləri :

| | |
|---|---|
| Ramiz Göyüşov | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| Aqil Eyvazov | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Əzizağa Məmmədov | Qaçqınlarla və məcburi köçkünlərlə iş şöbəsinin müdiri |
| Ruhəngiz Əliyeva | İnformasiya təminatı və təhlil sektorunun müdiri |

3. Məsləhət-məşvərət qrupuna tapşırılsın ki, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" əsasında səlahiyyətlərinə aid edilmiş funksional vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar olaraq görülmüş işlərin təhlilinin aparılması, görüləcək işlərin təşkili ilə əlaqədar təkliflərin verilməsi və planlaşdırılması məqsədilə həftədə bir dəfədən az olmayaraq məşvərətin keçirilməsini təmin etsin.

4. İnformasiya təminatı və təhlili sektorunun müdiri Ruhəngiz Əliyevaya tapşırılsın:

- qrupun iclasında verilmiş təklifləri bu Əmrə əlavə edilmiş cədvələ uyğun formada protokolla rəsmiləşdirilməsini təmin etsin və proqram təminatı vasitəsilə işlənməsi üçün tədbirlər görsün.
- 15 gün müddətində AİS-də “məsləhət-məşvərət alt menyusunun” texniki tapşırıqlarının hazırlanmasını təmin etsin.

5. Növbəti iş günü Rayon İcra Hakimiyyəti başçısının müavinləri Qrup tərəfindən qəbul edilmiş təkliflərə münasibət bildirsinlər.

6. Əmr aidiyyəti üzrə Rayon İcra Hakimiyyəti başçısı Aparatına elan edilsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**